# NAXÇIVAN MUXTAR RESPUBLİKASININ
# NAZİRLƏR KABİNETİ

# Q Ə R A R

**Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin** 2007-c**i il** 07 **mart tarixli** 28 **nömrəli qərarı ilə təsdiq edilmiş «Naxçıvan Muxtar Respublikası Auksion Mərkəzinin Əsasnaməsi»nə əlavə edilməsi haqqında**

Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti **qərara alır**:

1. Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2007-ci il 07 mart tarixli 28 nömrəli qərarı ilə təsdiq edilmiş «Naxçıvan Muxtar Respublikası Auksion Mərkəzinin Əsasnaməsi»nin 1.1-ci bəndinə aşağıdakı məzmunda ikinci abzas əlavə edilsin:

«Auksion Mərkəzi özəlləşdirmə prosesində dövlət müəssisəsi və obyektlərinin, habelə dövlət müəssisələrinin bazasında yaradılan səhmdar cəmiyyətlərinin səhmlərinin, dövlət mülkiyyətinə keçməklə müsadirə olunmuş əmlakın hərraclarda satışını və bununla bağlı digər tədbirləri həyata keçirən icra hakimiyyəti orqanıdır.».

2. Bu qərar imzalandığı gündən qüvvəyə minir.

**Naxçıvan Muxtar Respublikasının**
**Baş naziri**: **Ə.Baxşıyev**

12 oktyabr 2010-cu il

№ 89